**MƏDƏNİYYƏT DÜNYASI**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVIII buraxılış, Bakı, 2025**
**МИР КУЛЬТУРЫ**
**Азербайджанский государственный университет культуры и искусств, XLVIII выпуск, Баку, 2025**
**THE WORLD OF CULTURE**
**Azerbaijan State University of Culture and Arts, XLVIII edition, Baku, 2025**

**UOT 76**
**ORCID: 0009-0004-4571-6683**
**https://doi.org/10.52094/IYEM9820**

**Aynur Məmmədova Sakit qızı**
**Azərbaycan Rəssamlıq Akademiyası**
**doktorant**
**aykin.mammadova@mail.ru**

# AZƏRBAYCAN RƏNGKARLIĞINDA QARABAĞ MÖVZUSUNUN FORMALAŞMASI

**Xülasə.** Məqalədə Qarabağ mövzusunun Azərbaycan rəngkarlığında XX əsrdən başlayaraq formalaşma tarixi araşdırılır və bu mövzunun bədii-estetik inkişaf mərhələləri sistemləşdirilir. Qeyd olunur ki, Qarabağ rəngkarlıqda təkcə füsunkar təbiət təsviri kimi deyil, həm də tarixiliyi qoruyan ideya mənbəyi kimi çıxış edir. Regionun coğrafi müxtəlifliyi, dağ-aran keçidləri, Şuşa və Laçın kimi şəhərlərin memarlıq mühiti rəssamların yaradıcılıq marağını formalaşdıran əsas amillərdəndir. XX əsrin 1940-1960-cı illərində Qarabağ mövzusu lirizmlə yoğurulmuş, forma və rəng münasibətlərinə əsaslanan yeni bədii istiqamət yaratmış, 1980-ci illərdə isə mövzuya poetik-psixoloji münasibətin güclənməsi müşahidə edilmişdir.

Məqalədə Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Mahmud Tağıyev, Nadir Əbdürrəhmanov, Qəyyur Yunus kimi rəssamların əsərləri mövzunun müxtəlif istiqamətlərdə inkişafına nümunə kimi təhlil edilir. Mikayıl Abdullayevin "Axşam" əsəri insani və gündəlik həyat səhnələri ilə mövzunun erkən realizmini təsdiqləyir. Səttar Bəhlulzadənin "Cıdır düzü" kimi əsərlərində isə Qarabağ landşaftı geniş, poetik, monumental baxışla nümayiş olunur. Mahmud Tağıyev və Nadir Əbdürrəhmanov memarlıq və təbiət strukturunu dəqiq təsvir etməklə mövzunun topoqrafik tərəfini gücləndirirlər. Qəyyur Yunus isə Qarabağ mövzusunu mifoloji və simvolik məna daşıyan bədii sistemə çevirərək yeni estetik xətt yaradır. Nəticə olaraq, vurğulanır ki, Qarabağ mövzusu Azərbaycan rəngkarlığında çoxşaxəli bədii istiqamətlərin məkanıdır: realist təsvir, lirik-landşaft poetikası, memarlıq formasının sənədli təqdimatı və mifik-poetik ümumiləşdirmə yanaşmaları bu xəttin əsas bədii mərhələlərini təşkil edir. Mövzu həm sovet ideoloji çərçivələri daxilində milli-estetik

dəyərlərin qorunmasına xidmət etmiş, həm də regionda baş verən tarixi proseslər fonunda yeni mənəvi məzmun qazanmışdır.

**Açar sözlər:** Azərbaycan rəngkarlığı, Qarabağ mövzusu, rəssamlıq, təsviri sənət, təbiət, mənzərə

**Giriş.** Qarabağ mövzusu Azərbaycan rəngkarlığında XX əsrin ortalarından başlayaraq geniş bədii məzmun qazanmışdır. Bu mövzunun formalaşmasında bir tərəfdən regionun özünəməxsus təbiət quruluşu, relyefi və tarixi memarlıq abidələrinin rəssamlar üçün yaratdığı imkanlar, digər tərəfdən isə Qarabağın şəhər və kəndlərinin məişət və sosial həyatına dair təsəvvürlər mühüm rol oynamışdır. Rəssamların diqqətini xüsusilə bölgənin relyef müxtəlifliyi, yaylaqların genişliyi, dağ-aran keçidlərinin dinamikliyi, Şuşa kimi şəhərlərin memarlıq mühiti və bu coğrafiyanın özünəməxsus atmosferi çəkmişdir. XX əsrin 1940-1960-cı illərində Qarabağ mövzusu rəngkarlıqda yeni, lirizmə əsaslanan, formanın canlı plastikasına söykənən bir bədii istiqamət yaratmış, 1980-ci illərdə isə bu mövzunun lirik ovqatını araşdıran yanaşmalar meydana çıxmışdır.

**Əsas hissə.** Azərbaycan rəngkarlığında Qarabağ mövzusu hələ Orta əsrlərdən rəssamların diqqətini cəlb etmişdir. Bu marağın əsasında təkcə Qarabağın füsunkar təbiəti deyil, həm də onun mədəni irsi, memarlıq abidələri, mədəniyyəti dayanırdı. Başqa sözlə desək, Qarabağ təkcə mühüm coğrafi məkan kimi deyil, həm də mənəvi-simvolik mahiyyət daşıyan bir mədəniyyət beşiyidir. Bu baxımdan, Qarabağla bağlı rəngkarlıq əsərləri ilk növbədə xalqın özünüdərk prosesində tarixi sənəd kimi çıxış edir. Məhz buna görə Qarabağ mövzusu Azərbaycan rəngkarlığında iki istiqamətdə təşəkkül tapmışdır: regional mədəniyyətin tərənnümü və tarixi yaddaşın əyani göstəricisi kimi. XX əsrin ortalarından etibarən, xüsusilə Sovet dövründə Qarabağ bölgəsinə edilən yaradıcılıq səfərləri nəticəsində bir sıra rəssamların əsərlərində Şuşa, Laçın, Kəlbəcər, Zəngilan, Ağdam kimi bölgələrə həsr olunmuş rəngkarlıq tabloları yaranmağa başlamışdır. Bu dövrdə rəngkarlıqda Qarabağın təbiət mənzərələri, memarlıq abidələri, folklor elementləri və əmək mövzulu səhnələri əsas bədii material kimi çıxış etmişdir. Azərbaycan rəngkarlığında Qarabağ mövzusunun formalaşmasında XX əsr Azərbaycan rəngkarlığının görkəmli nümayəndələri arasında Mikayıl Abdullayev, Səttar Bəhlulzadə, Əyyub Məmmədov, Mahmud

Tağıyev, Xalidə Səfərova, Nadir Əbdürrəhmanov, Toğrul Nərimanbəyov, Altay Hacıyev, Asif Azərelli kimi rəssamların əsərlərinin rolu əvəzsizdir.

Mikayıl Abdullayevin hələ gənclik illərində yaratdığı realist üslublu Şuşa və ətraf bölgələri təsvir edən tabloları, xüsusilə "Axşam əsəri" (1947) XX əsr Azərbaycan rəngkarlığında Qarabağ mövzusunu özündə əks etdirən ən yaddaqalan rəngkarlıq əsərlərindəndir. Belə ki, "Hələ V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunun tələbəsi olarkən Şuşada olan gənc rəssam elə o vaxtlar onun yaradıcılığında xüsusi yeri olacaq "Axşam"(1947) tablosunu ərsəyə gətirmişdir. Bu süjetli tablo 26 yaşlı gözəllik aşiqinin fırçasının məhsulu olsa da, həm onun kompozisiya həllində, xüsusilə də tünd yaşıl və gümüşü-sədəfi koloritində ifadə olunan lirik ovqatda müəllifin yaşına uyğun olmayan bitkinlik duyulmaqdadır. Doğrudan da, axşam gəzintisinə çıxmış Qarabağlı qadınların milli geyimləri və yerli memarlığı özünəməxsusluğunu tanıtdıran darvazanın və müxtəlif yaşlı fiqurlar üçün yerlik rolunu oynayan zümrüdü yaşıllığın qovşağının yaratdığı bütövlükdə gözəlliyə bələnmiş mənəvi təravət və yüksək icra sənətkarlığı duyulmaqdadır" [Z.Əliyev, 2024, Şuşa təsviri sənətdə, Səh.135].

Mikayıl Abdullayevin 1947-ci ildə yaratdığı "Axşam" əsəri Qarabağ mövzusunun erkən bədii formalaşması baxımından diqqətəlayiqdir. Əsərdə təsvir olunan qələbəlik məkanın axşam işığında yumşaldılmış rəng münasibətləri ilə təqdim edilir. Qadın və uşaqların hərəkət ritmi kompozisiyanın aparıcı xəttini təşkil edir, fiqurların ardıcıl düzülüşü isə kompozisiyaya təbii axıcılıq verir. Forma həlli yumşaq konturlara əsaslanır, fiqurların plastikasında harmonik tarazlıq gözə çarpır. Əsərin rəng quruluşunda isti tonların üstünlüyü axşam saatına xas işıq miqdarının azalması ilə əlaqələndirilir və məkanın sakitləşməsinə işarə təşkil edir. Əsərin məzmununda gündəlik həyatın ahəngi Qarabağ kənd məkanının təsviri ilə birləşir və bölgəyə xas sosial münasibətlərin bədii obrazını yaradır. Bu yanaşma regionun insan həyatını onun təbiəti ilə birgə təqdim edən erkən təsvir ənənəsinin formalaşmasına xidmət etmişdir.

Mahmud Tağıyevin 1950-ci illərə aid "Şuşa mənzərəsi" əsərində Qarabağ mövzusunun daha konkret topoqrafiyası əks olunur. Məzmun baxımından Şuşanın həm tarixi, həm də coğrafi özünəməxsusluğunu vurğulayan bir baxış bucağı seçilmişdir. Şuşa şəhərinin relyef üzərində pilləli şəkildə yerləşməsi rəssamın kompozisiya quruluşunda aparıcı prinsip kimi tətbiq edilir. Dağ silsiləsinin fon təşkil etməsi, memarlıq həcmlərinin işıq-kölgə münasibətləri ilə

modelləşdirilməsi və şəhərin relyefə uyğun yüksəliş xarakteri əsərin forma dinamikasını müəyyənləşdirir. Rəng palitrasında açıq və təravətli tonların üstünlüyü Şuşa mühitinin dağ iqlimi ilə bağlı işıqlılığını əks etdirir. Əsərdə memarlıq həcmlərinin ardıcıl və nizamlı təsviri şəhərin struktur quruluşunu bədii dildə ifadə edir.

Səttar Bəhlulzadənin koloristik baxımdan zəngin və poetik təbiət mənzərələrində Qarabağ torpağı, xüsusilə qədim Şuşa olduqca əsrarəngiz şəkildə tərənnüm edilmişdir. Bu mənada rəssamın “Şuşa dağları” (1956), “Cıdır düzü” (1956), “Şuşa ətrafında” (1957), “Yuxarı Daşaltı” (1957), “Qarabağ mənzərəsi” (1957) və s. əsərlərini qeyd etmək olar.

Səttar Bəhlulzadənin 1956-cı ildə yaratdığı “Cıdır düzü” əsəri Qarabağ landşaftının Azərbaycan rəngkarlığında yeni poetik-estetik mərhələsinin təməlini qoymuşdur. Səthin genişliyi, yamacların dalğavari quruluşu və ot örtüyünün müxtəliflik təşkil edən fakturası əsərdə formanın dinamik quruluşunu müəyyənləşdirir. Rəng koloritində yaşıl tonların müxtəlif çalarlarla ritmik şəkildə dəyişməsi landşaftın dərinliyini artırır. Uzaq planların soyuq tonlarda verilməsi məkan perspektivini gücləndirir. Əsərin məzmununda Cıdır düzünün genişliyi təkcə coğrafi təsvir kimi yox, həm də Qarabağ təbiətinin açıq və gen hüdudlarını ifadə edən bədii kod kimi təqdim edilmişdir. Rəssamın bu yanaşması Qarabağ torpağının təsviri sənətdə daha geniş və monumental təqdim olunmasının əsasını qoymuşdur.



**Səttar Bəhlulzadə. “Cıdır düzü”. 1956**

Nadir Əbdürrəhmanovun 1960-cı illərdə yaratdığı "Şuşa" əsəri Qarabağ mövzusunda koloristik sabitlik və memarlıq strukturunun dəqiq təsvirinə əsaslanır. Şəhər silueti rəng münasibətlərindəki uyğunlaşdırılmış tonlarla formalaşdırılır və relyefə uyğun olaraq pilləli şəkildə dərinliyə doğru açılır. Ev görünüşləri, məscid minarələri və yaşayış məhəllələrinin kompozisiyada tutduğu mövqe şəhərin tarixi quruluşunun bədii təsvirini yaradır. Rəng həllində mavi və yaşıl tonların yumşaq keçidlərlə verilməsi Şuşa mühitinin dağ iqlimi ilə bağlı təmizliyini və işıq genişliyini göstərir. Əsərin məzmunu şəhərin dağlar arasında əhatələnmiş təbii-coğrafi mövqeyini və urbanistik nizamlılığını vurğulayır.

Nadir Əbdürrəhmanovun 1965-ci ildə çəkdiyi "Laçın" əsəri Qarabağ bölgəsinin daha sərt relyefini əks etdirir. Burada relyefin kəskin yüksəklik keçidləri, yolların zikzaqvari strukturu və evlərin yamac boyunca pilləli yerləşməsi kompozisiyanın aparıcı xəttini təşkil edir. Forma həllində xəttin rolu artır, dağların silueti kəskin konturlarla müəyyənləşdirilir. Rəng quruluşunda soyuq tonların üstünlüyü Laçının dağ iqlimini ifadə edir. Qar örtüyü altındakı səthlərdə açıq tonların çoxluğu isə məkanın işıq tutumunu artırır. Məzmun baxımından əsər Laçının sərt coğrafi şəraitini bədii dillə təsvir edir və Qarabağ bölgəsinin təbiət müxtəlifliyinin rəngkarlıq interpretasiyalarındakı rolunu göstərir.

Qəyyur Yunusun 1985-ci ildə yaratdığı "Şuşa qalası haqqında əfsanə" əsəri Qarabağ mövzusunun bədii inkişafında fərqli istiqamət təklif edir. Əsərdə kompozisiya realist təsvir qaydalarından uzaqlaşır və mövzu mifoloji səciyyəli obrazlarla təqdim olunur. Fiqurların iri gözlü, sadələşdirilmiş plastik quruluşu və simvolik xarakter daşıyan formalar əsərə poetik ümumiləşdirmə bəxş edir. Rəng münasibətlərində tünd, bəzən xəyalvari çalarların seçilməsi hekayənin əfsanəvi məzmununa uyğunlaşdırılır. Əsərin məzmununda insanların obrazlaşmış durumları qalanın keçmişinə bağlı olan kollektiv xatırlatmaların bədii formasına çevrilir.

Qeyd edək ki, *"Şuşanın musiqiyə bələnmiş əsrarəngiz təbiətinin gözəlliyinə rəngkar-rəssamlarımızın bədii münasibətində görünənlərdən ilhamlanmaq istəyi kifayət qədər qabarıq olduğundan, bu gün həm də qiymətli saxlanc kimi dəyərləndirilən həmin əsərlər zamansızlığa qovuşmuş tutumda çağdaş nəslin gələcək xələflərinə layiqli töhfəsi hesab edilməyə layiqdir".* [Z.Əliyev, 2024, Şuşa təsviri sənətdə, Səh.135].

**Nəticə.** Nəticə qeyd edək ki, Qarabağ mövzusunun Azərbaycan rəngkarlığında formalaşması XX əsrin müxtəlif mərhələlərində həm realist, həm lirizmə əsaslanan, həm də poetik-mifik yanaşmaların iştirakı ilə inkişaf etmişdir. Mikayıl Abdullayevin gündəlik həyat səhnəsini təqdim edən əsəri bu mövzunun insani ölçülərini ortaya qoymuş, Mahmud Tağıyev və Nadir Əbdürrəhmanov Şuşa və Laçın kimi şəhərlərin memarlıq və coğrafi xüsusiyyətlərini rəngkarlığa gətirmiş, Səttar Bəhlulzadə Qarabağ landşaftına monumental-estetik baxışın əsasını qoymuşdur. Qəyyur Yunus isə mövzunun poetik və əfsanəvi tərəfini araşdıraraq Qarabağ təsvirinə yeni bədii məna gətirmişdir. Bu əsərlərin hər biri Qarabağın təbiət, memarlıq və insan mühiti ilə bağlı müxtəlif aspektləri bədii dildə təqdim etmiş və Azərbaycan rəngkarlığında bu mövzunun çoxşaxəli inkişaf xəttini formalaşdırmışdır.

Sovet dövrü ideoloji çərçivələrinə baxmayaraq, Qarabağ mövzusunda çəkilmiş əsərlərdə rəssamlar öz milli mənsubiyyətlərini və mədəni köklərə bağlılıqlarını dolayısı ilə ifadə edə bilmişlər. Xüsusilə 1980-ci illərdən sonra bölgədə baş verən siyasi gərginlik və Qarabağ münaqişəsinin dərinləşməsi rəssamların bu mövzuya yanaşmasında yeni psixoloji və fəlsəfi düşüncənin meydana çıxmasına səbəb olmuşdur. Bu dövrdə əsərlərdə həm nostalji, həm də faciəvi dərinlik müşahidə olunur. Beləliklə, Qarabağ mövzusu Azərbaycan rəngkarlığında həm klassik ənənələr, həm də müasir axtarışlar fonunda özünü yenidən ifadə etməyə davam edir.

## Ədəbiyyat siyahısı

1. Əfəndi R. (2007). Azərbaycan incəsənəti. Bakı, Şərq-Qərb.
2. Əliyev Z. (2022). Xarıbülbül ətri. Bakı, TUNA.
3. Əliyev Z. (2024). Şuşa təsviri sənətdə. Bakı, Azərnəşr.
4. Əsgərova X. (2015). XX əsr Azərbaycan boyakarlığının inkişafı. Bakı: ADNSU.
5. Quliyev R. (2013). Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət. Bakı: Letterpress.

**Aynur Mammadova Sakit gizi**

## Formation of the Karabakh theme in Azerbaijani painting

**Summary.** The article examines the history of the formation of the Karabakh theme in Azerbaijani painting starting from the 20th century and systematizes the stages of artistic and aesthetic development of this theme. It is

noted that Karabakh acts in painting not only as a fascinating depiction of nature, but also as a source of ideas that preserves historicity. The geographical diversity of the region, mountain-valley passes, the architectural environment of cities such as Shusha and Lachin are among the main factors shaping the creative interest of artists. In the 1940s-1960s of the 20th century, the Karabakh theme was mixed with lyricism, creating a new artistic direction based on the relationships of form and color, and in the 1980s, a strengthening of the poetic-psychological attitude to the theme was observed.

The article analyzes the works of artists such as Mikayil Abdullayev, Sattar Bahlulzade, Mahmud Tagiyev, Nadir Abdurrahmanov, Gayyur Yunus as examples of the development of the theme in various directions. Mikayil Abdullayev's work "Evening" confirms the early realism of the theme with scenes of human and everyday life. In works such as Sattar Bahlulzade's "Jidır Plain", the Karabakh landscape is demonstrated with a broad, poetic, monumental view. Mahmud Tagiyev and Nadir Abdurrahmanov strengthen the topographical side of the theme by accurately describing the architectural and natural structure. Gayyur Yunus, on the other hand, creates a new aesthetic line by transforming the Karabakh theme into an artistic system with mythological and symbolic meaning. As a result, it is emphasized that the Karabakh theme is a place of multifaceted artistic directions in Azerbaijani painting: realistic depiction, lyrical-landscape poetics, documentary presentation of architectural form, and mythical-poetic generalization approaches constitute the main artistic stages of this line. The theme served both to protect national-aesthetic values within the Soviet ideological framework and to acquire new spiritual content against the background of historical processes taking place in the region.

**Key words:** Azerbaijani painting, Karabakh theme, painting, fine arts, nature, landscape

**Айнур Мамедова Сакит кызы**

**Становление Карабахской темы в азербайджанской живописи**

**Резюме.** В статье рассматривается история формирования карабахской темы в азербайджанской живописи, начиная с XX века, и систематизируются этапы художественно-эстетического развития этой темы. Отмечается, что Карабах выступает в живописи не только как завораживающее изображение природы, но и как источник идей, сохраняющий историчность. Географическое разнообразие региона,

горно-долинные перевалы, архитектурная среда таких городов, как Шуша и Лачин, являются одним из основных факторов, формирующих творческий интерес художников. В 1940–1960-е годы XX века карабахская тема переплетается с лиризмом, создавая новое художественное направление, основанное на соотношении формы и цвета, а в 1980-е годы наблюдается усиление поэтико-психологического отношения к теме. В статье анализируются работы таких художников, как Микаил Абдуллаев, Саттар Бахлулзаде, Махмуд Тагиев, Надир Абдуррахманов, Гаюр Юнус, как примеры развития темы в различных направлениях. Работа Микаила Абдуллаева «Вечер» подтверждает ранний реализм темы сценами человеческой и повседневной жизни. В таких произведениях, как «Джыдырская равнина» Саттара Бахлулзаде, карабахский пейзаж представлен широким, поэтичным, монументальным взглядом. Махмуд Тагиев и Надир Абдуррахманов усиливают топографическую сторону темы, точно описывая архитектурную и природную структуру. Гаюр Юнус, с другой стороны, создает новую эстетическую линию, превращая карабахскую тему в художественную систему с мифологическим и символическим значением. В результате подчёркивается, что карабахская тема занимает место в многогранных художественных направлениях азербайджанской живописи: реалистическое изображение, лирико-пейзажная поэтика, документальное изображение архитектурной формы и мифопоэтическое обобщение составляют основные художественные этапы этого направления. Тема служила как защите национально-эстетических ценностей в рамках советской идеологии, так и обретению нового духовного содержания на фоне исторических процессов, происходивших в регионе.

**Ключевые слова:** азербайджанская живопись, карабахская тема, живопись, изобразительное искусство, природа, пейзаж

Məqalənin redaksiyaya daxilolma tarixi: 20.11.2025
Məqalənin çapa qəbul olunma tarixi: 21.11.2025